

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

18 sentyabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 36 (3748)


# Gələcək bu gün qurulur

**Azərbaycanın iqtisadi qüdrətinin artması işğaldan azad edilən torpaqlarımızda möhtəşəm tikinti-quruculuq işlərinin daha da sürətlənməsinə müsbət impuls verir.**



## Prezidentin Qarabağa səfərləri uğurun göstəricisidir

Demək olar ki, hər gün ölkəmizin müxtəlif istiqamətlərindən köç karvanı Qarabağa, Şərqi Zəngəzura yola salınır. Həyata keçirilən böyük layihələrin nəticəsi olaraq Qarabağda və Şərqi Zəngəzurda bərpa edilmiş yaşayış məntəqələrinin və daimi yaşamaq üçün bu yerlərə qayıdan məcburi köçkünlərin sayı sürətlə artmaqdadır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında indi quruculuq işləri ilə bərabər, kənd təsərrüfatının inkişafı da geniş vüsət alıb.

Sentyabrın 14-15-də Prezident İlham Əliyevin Qarabağa səfəri çərçivəsində reallaşan təməlqoymalar, açılışlar və keçirilən görüşlərdə səslənən fikirlər bir daha təsdiq edir ki, Qarabağ və Şərqi Zəngəzur qısa zamanda cənnətməkana çevrilir.

> *“Heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmayıb”*

Öncə dövlət başçısı Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin təməlini qoyub, Xocavənd rayonunun Hadrut və Qırmızı Bazar qəsəbələrində, Sos kəndində olub, Hadrut qəsəbəsində inşa edilmiş məscidin açılışını edib. Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşüb.

Xocavənd rayonunun azadlığından söz açan Prezident bildirib ki, iki il öncə sentyabrın 19-20-də şanlı ordumuz separatçılığa son qoyub. Onunla da separatçılığın kitabı bağlanıb və Azərbaycan tam suverenliyini bərpa edib. Hazırda Böyük Qayıdışa dair Dövlət Proqramının uğurla icra edildiyini söyləyən ölkəmizin rəhbəri vurğulayıb ki, son beş ilin tarixi Zəfər tarixidir. Bu müddət ərzində keçmiş məcburi köçkün soydaşlarımıza yeni mənzillər tikilib. Bütün şərait təmin edilib - su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar salınıb.

Bu gün bütün dünyanın Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıdığını vurğulayan Müzəffər Ali Baş Komandan bildirib ki, 44 gün və bir gün - heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmayıb.

Prezident deyib kimi, Qarabağda və Şərqi Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Bu da ilk növbədə dövlətin iqtisadi qüdrətinin göstəricisidir. Heç bir təşkilatdan, hansısa dövlətdən yardım almadan öz gücünə işğaldan azad edilən torpaqlarda möhtəşəm tikinti-quruculuq işləri aparan Azərbaycan əbəs yerə dünyanın fəal aktorları sırasında yer almayıb. Bunun da səbəbi ilk növbədə Prezident İlham Əliyevin müstəqil və qətiyyətli siyasəti, Azərbaycanın etibarlı tərəfdaşlığı və ölkəmizin iqtisadi qüdrətidir.

Prezident sentyabrın 15-də Xocalıya da səfər edib. Burada dövlət başçısı Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib, Daşbulaq kəndində tut bağında görülmüş işlərlə tanış olub. Həmçinin rayonun Daşbulaq, Seyidbəyli, Şuşakənd, Badara kəndlərində olub.

Həmin gün Xocalının Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşən Prezident onları təbrik edib və yeni evlərində yalnız sevincli günlər yaşamalarını arzulayıb: "Azərbaycan dövləti sizin üçün bütün şəraiti yaradıb. Evlər gözəl təmir olunur, bütün infrastruktur - yollar, təbii qaz və elektrik enerjisi, su. Ən önəmlisi isə siz doğma Qarabağ diyarında artıq əbədi yaşayacaqsınız - siz və sizin davamçılarınız. Bu, ədalətin təntənəsidir".

Böyük Zəfərin 5 illik yubileyi, suverenliyin tam olaraq bərpasının 2-ci ilində Azərbaycan dünyaya necə qüdrətli dövlət olduğunu bir daha nümayiş etdirir. Bütün bunlar şanlı Zəfərimizin təntənəsidir.

# Dövlətin və xalqın güvən yeri

## Polis öz vəzifəsini qətiyyətlə, layiqincə və uğurla yerinə yetirir

Azərbaycanın sabitliyin, təhlükəsizliyin və asayişin etibarlı təmini baxımından regionda və dünyada ən yaxşı göstəricilərə malik ölkələrdən olması faktdır. Dövlətimizin və xalqımızın mənafeyi naminə hər cür rəşadət göstərməyə qadir olan Azərbaycan polisinin, daxili işlər orqanlarının hər bir strukturunun fəaliyyəti göstərir ki, ölkəmiz sosial-iqtisadi inkişafla yanaşı, həm də asayişin, əmin-amanlığın qorunması və cinayətkarlığa qarşı mübarizə sahəsində də liderlər cərgəsindədir.

### Peşəkarlığın, sayıqlığın və operativliyin nümunəsi

Bu günlərdə Xankəndi şəhərində baş vermiş hadisə bir daha Azərbaycan polisinin peşəkarlığının, daxili işlər orqanları əməkdaşlarının təhlükəsizliyin keşiyində hər an sayıq dayanmalarının möhtəşəm nümunəsi oldu.

Xatırladaq ki, cari ilin sentyabrın 14-də Xankəndi şəhərinin erməniəsilli sakini, 1967-ci il təvəllüdlü Karen Avanesyan yaşadığı yerdən şəhərin yaxınlığındakı meşə massivinə gedərək qabaqcadan orada gizlətdiyi "Kalaşnikov" avtomatını və ona aid patronla dolu 4 sandıqçanı, eləcə də 5 ədəd qumbaranı götürüb Xankəndi şəhərində əhalinin sıx toplaşdığı yerə yaxınlaşmaq istəyərkən polis əməkdaşları tərəfindən saxlanılıb. Bu zaman K.Avanesyan 3 ədəd əl qumbarası atmaqla və avtomatdan atəş açmaqla polisə silahlı müqavimət göstərib.

Cavab atəşi nəticəsində güllə yarası almış K.Avanesyan tutulub. Əməliyyat zamanı bir polis əməkdaşı yaralanıb. Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti birgə cinayət işi qaldıraraq əməliyyat-istintaq tədbirləri aparırlar.

### Sabitliyin və təhlükəsizliyin keşiyində

Əgər həmin gün xidmətdə olan polis əməkdaşlarının sayıqlığı olmasaydı, yəqin ki, K.Avanesyan terror hadisəsi törədərdi. Lakin polisimizin fədakarlığı nəticəsində o niyyətinə çata bilmədi.

Ümumiyyətlə, Azərbaycan polisi həmişə öz vəzifəsini layiqincə yerinə yetirib, dövlətçiliyin və təhlükəsizliyin keşiyində mətin dayanıb. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən hüquq-mühafizə siyasətinin sayəsində ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik hər zaman etibarlı şəkildə qorunur. Cinayətkarlıqla mübarizə, ictimai asayişin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində xidməti vəzifələr layiqincə yerinə yetirilir, o cümlədən işğaldan azad edilmiş ərazilərdə təhlükəsizlik etibarlı şəkildə təmin olunur.

Torpaqlarımızın azad olunması uğrunda mübarizədə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının bölmələri fədakarlıqla döyüşərək, erməni işğalçıları üzərində şanlı Zəfərin qazanılmasında öz sözlərini dedilər.

*(ardı 2-ci səhifədə)*

# Prezidentdən təşəkkür

## “Dostluğumuzu çox yüksək dəyərləndirirəm”

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın Prezidenti Donald Trampa təşəkkür edib. Bununla bağlı İlham Əliyev sosial şəbəkədə paylaşım edib.

"Hörmətli Donald Tramp, "Truth Social" hesabınızda söylədiyiniz xoş sözlərə görə təşəkkür edirəm. Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəliləməsində və tarixi Vaşinqton Sammitinə ev sahibliyi etməyinizdə oynadığınız mühüm rolu dərindən qiymətləndirirəm. Siz Azərbaycan və Amerika Birləşmiş Ştatları arasında əbədi dostluğun və formalaşmaqda olan strateji tərəfdaşlığın memarısınız. Dostluğumuzu çox yüksək dəyərləndirirəm", - Azərbaycan Prezidenti yazıb.

# Əlaqələrimiz zirvədədir

## Münasibətlər möhkəmlənir

Bizim əlaqələrimiz qardaşlıq, dostluq üzərində qurulub. Bu gün imzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq.

Bu sözləri Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşündə deyib. İmzalanmış hər bir sənədin böyük əhəmiyyət daşıdığını vurğulayan dövlətimizin başçısı bildirib: “Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir”.

# Birliyimiz nümunədir

## Bölgədə artıq sülh dövrü başlayıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Şuşada Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Selçuk Bayraktaroğlunu qəbul edib. Görüşdə ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyi vurğulanıb.

Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələrin olmadığını deyən dövlətimizin başçısı qeyd edib ki, birliyimiz dünya miqyasında önəmli amildir. Prezident İlham Əliyev bölgədə artıq sülh dövrünün başladığını vurğulayıb.

# Fərman və sərəncamlar

*Azərbaycan Respublikası ilə ICESCO arasında uğurlu əməkdaşlıq əlaqələrinin inkişafında xidmətlərinə görə ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik “Dostluq” ordeni ilə təltif edilib. Prezident İlham Əliyev sentyabrın 15-də bununla bağlı Sərəncam imzalayıb.*

*Masallı rayonunun Xıl–Sirəbil–Allahyarlı–Molalan–Çayqıraq avtomobil yolu əsaslı təmir olunacaq. Bununla bağlı Prezident İlham Əliyev sentyabrın 11-də Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev sentyabrın 8-də Sumqayıt Kimya Sənaye Parkının adının dəyişdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.*

İşğaldan azad olunmuş ərazilərdə tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilib. Prezident İlham Əliyev avqustun 29-da bununla bağlı yeni Fərman imzalayıb.


Suverenliyə qovuşduğumuz tarix..........2

Kursantlar and içdilər............................3

Paytaxtımız dünyanın diqqətindədir.....3

Silahsız qəhrəman: Desmond Doss.....4

# Respublika Xəbərləri

### Dərinləşən əməkdaşlıq

Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında 14 sənəd imzalanıb. Həmin sənədlər Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşü zamanı imzalanıb.

### Gəlirlərimiz daha da artacaq

2026-cı ildə Azərbaycanda əhalinin nominal gəlirləri 97,4 milyard manat məbləğində proqnozlaşdırılır. Maliyyə Nazirliyinin proqnozlarına əsasən, 2027-ci ildə əhalinin gəlirləri 105,3 milyard manata, 2028-ci ildə 113,4 milyard manata, 2029-cu ildə isə 123,2 milyard manata çatacaq. Beləliklə, 2026-2029-cu illərdə əhalinin gəlirləri 26,5 faiz artacaq.

### MDB Oyunlarına hazırıq

Azərbaycanda təşkil olunacaq III MDB Oyunları üçün qeydiyyatdan keçən ölkələrin və idmançıların sayı artıb. Verilən məlumata görə, yarışa 12 ölkədən 1619 idmançı və 2313 nümayəndə qatılacaq. Daha əvvəl 10 ölkənin iştirakı nəzərdə tutulsa da, sonradan bu siyahıya Pakistan və Oman da əlavə olunub.

### Günəş enerjisinin istehsalı artıb

Bu ilin yanvar-avqust aylarında Azərbaycanda günəş elektrik stansiyalarında 407,9 milyon kVt/saat elektrik enerjisi istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, ötən ilin 8 ayının göstəriciləri ilə müqayisədə 13 faiz çoxdur.

### Valyuta ehtiyatlarımız nə qədərdir?

Bu ilin əvvəlindən Azərbaycanın strateji valyuta ehtiyatları 6,7 milyard ABŞ dolları artaraq 77,7 milyard ABŞ dollarına çatıb. Azərbaycan Mərkəzi Bankından verilən məlumata görə, hesabat dövründə Azərbaycanın ixrac etdiyi neftin orta qiyməti 70,7 ABŞ dolları, təbii qazın isə min kubmetrinin qiyməti isə 301 ABŞ dollar təşkil edib.

### Xərclərdə artım nəzərdə tutulur

Gələn il Azərbaycanda məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq xərclərinin 3 milyard 553,6 milyon manat olması nəzərdə tutulur. Məlumata görə, bu, 2025-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 11,3 faiz çoxdur. Gələn il büdcə gəlirlərinin 38 milyard 423 milyon manat, xərclərinin isə 41 milyard 548,6 milyon manat olacağı gözlənilir.

### Növbəti köç karvanı

Yola salınan növbəti köç karvanı Kəlbəcər şəhərinə çatıb, mənzillərin açarları sakinlərə təqdim edilib. Bu mərhələdə Kəlbəcərə ümumilikdə 139 nəfər (32 ailə) köçürülüb. Onlar şəhərdəki 1-ci yaşayış məhəlləsində məskunlaşıblar. Bununla da Kəlbəcər şəhərinə köçürülən ailələrin sayı 52-yə (223 nəfər) çatdırılıb.

### Zəngəzur dəhlizi tamamlanır

Zəngəzur dəhlizində tikinti işləri yekunlaşmaq üzrədir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib ki, uzunluğu 123,6 kilometr olan əsas yolun tikintisi hazırda 95 faiz səviyyəsində tamamlanıb. Zəngəzur dəhlizi layihəsinin ümumi uzunluğu 149,9 kilometr təşkil edir ki, bunun 123,6 kilometri əsas yoldur.

### Metroda rekord

Bakı Metropoliteni tədris ilinin ilk günündə 891 min 856 sərnişin daşıyaraq tarixində ikinci ən böyük nəticəyə imza atıb. Bu barədə "Bakı Metropoliteni" QSC-dən bildirilib. Birinci ən böyük göstərici ötən il sentyabrın 16-da qeydə alınıb. Həmin vaxt Bakı şəhərində 898 min 180 sərnişin metrodan istifadə etmişdi.

### Azərbaycanın investisiya qoyduğu ölkələr

Bu ilin yanvar-iyun aylarında Azərbaycan iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyaların həcmi təxminən 3,2 milyard dollar təşkil edib. Ölkəmizin xarici ölkə iqtisadiyyatlarına yatırımları isə 3,4 milyard dollar olub. Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatıran ölkələr - Böyük Britaniya, Türkiyə, Kipr, İsveçrə və İran olub. Azərbaycandan ən çox yatırım İsrail, Türkiyə, BƏƏ, Gürcüstan və ABŞ təşkil edib.

# Dövlətin və xalqın güvən yeri

## Polis öz vəzifəsini qətiyyətlə, layiqincə və uğurla yerinə yetirir

*(əvvəli 1-ci səhifədə)*

44 günlük savaşdan və antiterror tədbirlərindən sonra Azərbaycan polisinin və Daxili Qoşunların fəaliyyətində yeni şərəfli missiya başlayıb. İşğaldan azad edilmiş ərazilərdə ictimai qaydaların və təhlükəsizliyin təmin olunmasında, "Böyük Qayıdış" proqramının uğurlu icrasında, Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsində daxili işlər orqanları şərəfli xidmət həyata keçirirlər.









Əldə olunan uğurlar daxili işlər orqanlarını arxayınlaşdırmır və Xankəndidəki hadisənin qarşısının alınması da göstərir ki, Azərbaycan polisi öz vəzifəsini layiqincə və əzmlə yerinə yetirir. Bu hadisə bir daha təsdiqlədi ki, Ümummilli Lider Heydər Əliyevin əmanəti olan və Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən respublikamızda sabitlik möhkəm qorunur, hər hansı təxribatın, konstitusiyaya zidd hərəkətlərin qarşısı Azərbaycanın daxili işlər orqanlarının şəxsi heyəti tərəfindən qətiyyətlə alınır.

Bəli, güclü nizam-intizama, yüksək peşəkarlığa malik, müasir maddi-texniki imkanlarla təchiz edilmiş respublikamızın daxili işlər orqanları qarşılarında dayanan vəzifənin öhdəsindən uğurla gəlirlər. Dövlətin və xalqın keşiyində dayanan Azərbaycan polisi ictimai sabitliyə təhlükə yaradan istənilən təhdidə qarşı barışmazdır.

*Rəşad Cəfərli*

# Suverenliyə qovuşduğumuz tarix

## Antiterror tədbirləri həmrəyliyin təntənəsi idi

Vətən müharibəsindən sonra aşılası sədd də, qarşıdakı hədəf də məlum idi. Lakin illərdir Xankəndini terror yuvasına çevirmiş Ermənistan nəfəslik kimi baxdığı sülhməramlı qüvvələrə, eləcə də beynəlxalq təşkilatlardakı havadarlarına güvənərək növbəti təxribatına 19 sentyabr 2023-cü ildə əl atdı.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının əməkdaşlarının olduğu nəqliyyat vasitəsi həmin gün Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edərkən saat 04:30 radələrində Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partladı, törədilmiş terror aktı nəticəsində Alayın 4 əməkdaşı hadisə yerində həlak oldular.

Hadisədən bir neçə saat sonra Müzəffər Ali Baş Komandanın əmri ilə Qarabağda qanunsuz erməni qruplaşmalarına qarşı antiterror tədbirlərinin başlanıldığı elan edildi. Cəmi 23 saat davam edən bu əməliyyat ordumuzun şanlı Qələbəsi ilə başa çatdı. Azərbaycanı yer üzündən silməklə hədələyən separatçılar qaçmağa imkan tapmadı və onlar özlərinin dediyi kimi Bakıya gəldilər, ancaq qolları bağlı şəkildə.

Antiterror tədbirləri, yəni minimum itkilərlə sona çatan bu əməliyyatı dünya hərb tarixinin mükəmməl örnəyi hesab etmək olar. Bu tədbirlərlə torpaqlarımız tam işğaldan azad olundu və suverenliyinə qovuşdu.

Əslində Azərbaycan Vətən müharibəsində olduğu kimi, antiterror tədbirlərində də humanistlik nümayiş etdirdi. Bunu möhtərəm Prezidentimiz dəfələrlə vurğulayıb. Bu günlərdə Xocalının Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüş zamanı da bu fikirləri bir daha dilə gətirdi: "Onları inandırmağa çalışmışam ki, əgər siz öz xoşunuzla torpağımızdan çıxmasanız, müharibə qaçılmazdır. Amma onlar hesab edirdilər ki, bu olmayacaq. Hesab edirdilər ki, onların arxasında duran böyük dövlətlər, güclər, onlara silah verən, pul verən, siyasi dəstək verən onları hər dəfə, hər zaman qoruyacaq. Amma bizim iradəmizi düzgün hesablaya bilməmişdilər. Amma mən dəfələrlə onlara demişdim ki, öz xoşunuzla çıxın. Hətta İkinci Qarabağ müharibəsindən sonra, artıq bizim şanlı Zəfərimizdən sonra, Şuşanın azad olunmasından sonra onlara deyirdim ki, Azərbaycanda separatçılığa yer yoxdur. Gəlin, Azərbaycan qanunlarına tabe olun, gəlin, Azərbaycan vətəndaşlığını qəbul edin və burada yaşayın, sizə söz deyən olmayacaq. Yenə də bizə qarşı həm hərbi təxribatlar, həm siyasi təxribatlar, yekəxanalıq və faktiki olaraq, mənfi münasibət özünü göstərdi. Ona görə 19-20 sentyabr antiterror əməliyyatı onlara dərs oldu və hamıya dərs oldu. Cəmi bir neçə saat davam edən hərbi əməliyyat separatçıların kökünü kəsdi və onların ümid bağladıqları yerlər də səssiz qaldı. Çünki Azərbaycan Ordusu qarşısında heç kim dura bilməzdi, Azərbaycan xalqı qarşısında heç kim dura bilməzdi, ona görə ki, biz haqlıyıq.

Bu gün haqlı olduğumuzu bir daha burada sübut edirik. Onlar şəhər və kəndlərimizi yerlə-yeksan etmişdilər, biz isə qurub-yaradırıq".



Xəzər Zamanov, Asim Camalzadə, Rasim Məmmədov, Seyfi Abdullayev



Ramil Şirinov, Seymur Mahmudov, Ələsgər Əsgərov, Əzizbəy Muradov

Antiterror tədbirləri Prezidentin dərin strateji həmləsinin nəticəsi idi. Daxili işlər orqanlarının da aktiv iştirak etdiyi suverenlik uğrundakı bu antiterror tədbirləri tarixən sentyabr ayında gerçəkləşən hərbi-siyasi qələbələrimizi də yada salır. Təxminən bir əsr əvvəl Azərbaycan – Türk hərbi birliyi Bakını bolşevik - erməni əsarətindən sentyabrın 15-də qurtarmışdı. Nəhayət daimi paytaxtı olan dövlət qurulmuşdu. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı və bu, təkcə vacib neft kontraktı deyildi. Siyasi əhəmiyyətinə görə dövlət müstəqilliyimizə beynəlxalq aləmdən həm də zəmanət sənədi alınmışdı. 1991-ci ildə dövlət müstəqilliyimizi elan etdikdən sonra 30 il qanunlarımızın "ayağının" dəymədiyi yerlərdə hüquq, nəhayət, 2023-cü ilin sentyabrında bərqərar oldu. Tam suveren, ərazi bütövlüyü bərpa olan dövlət dünyaya yenidən boy göstərdi.

### Vətən unudulmur, Vətən unutmur!

Antiterror tədbirlərində xidməti vəzifəsini yerinə yetirərkən şəhid olan 8 polis əməkdaşımızın ailə üzvlərinin onlar haqqında danışarkən evdə heç kimə, heç nə demədən ayrıldıqlarının şahidi olduq. Bunun bir adı xidməti konfedensiallıqdır, əlbəttə. Ancaq bu, həm də onu göstərirdi ki, məsələ dövlət, millət, anda sədaqət olanda, xalqın taleyüklü anlarında əməkdaşlarımız yenə şəxsi talelərinə önəm verməyiblər, öncə Vətən deyiblər. Onlar yaxşı bilirdilər ki, Vətən unudulmur, Vətən unutmur.



Rəşad Hüseynov, Elvin Əhmədov, Vaqif Rəcəbov, Ramin Hüseynov



Zahir Əliyev, Süleyman Mehdiyev, Azər Məmmədov, Rəşad Vəlizadə



Samir Sadıqov, Camal Səmədov, Sahil Babayev, Fərid Nəbiyev

### Qarabağda sülhün keşiyindəyik

Uzun müddət silahlı terrorçu dəstələrin yuvalandığı Qarabağda sabitliyin bu qədər yüksək səviyyədə qorunması, mümkün təxribatlara zəmin yaranmasına imkan verilməməsi nəinki ölkə əhəmiyyətli fəaliyyətdir, həm də regionun sabitliyinə töhfədir. Elə təkcə bu səbəb kifayət edir ki, bizə Qarabağda daxili işlər orqanlarının həm də sülhün keşiyini çəkdiyini deyək.

# Kursantlar and içdilər

## Onları qarşıda uğurlu və məsuliyyətli illər gözləyir

**Sentyabrın 15-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris ilinin başlanması və I kurs kursantlarının "Polis Andı"nı qəbul etmələri ilə bağlı təntənəli mərasim keçirilib.**

Tədbirə başlamazdan öncə torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan igid oğullarımızın, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olan həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının dövlət himni ifa edilib.











Mərasimi giriş sözü ilə açan Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov tədbir iştirakçılarını salamlayaraq yeni tədris ilinin başlanması münasibətilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazovun təbrik və tövsiyələrini şəxsi heyətə çatdırıb.

Ötən dövr ərzində əldə olunmuş nailiyyətlərə toxunan Akademiya rəisi müasir meyarlara cavab verən təhsil prosesinin həyata keçirilməsi və milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə edilən peşəkar polis kadrlarının hazırlığı istiqamətində qarşıya qoyulmuş vəzifələrin bundan sonra da əzmlə yerinə yetiriləcəyini vurğulayıb.

Tədbirin davamı olaraq 2024-2025-ci tədris ilini müvəffəqiyyətlə başa vuraraq tədris və idman nəticələrinə görə Polis Akademiyasının kursantları arasında "Əlaçı kursant" və II dərəcəli "İdmançı kursant" döş nişanlarına layiq görülmüş, habelə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən III ixtisas qrupu üzrə keçirilmiş imtahanlarda 650 və yuxarı bal toplayaraq Polis Akademiyasına qəbul olmuş gənc kursantlara döş nişanları və qiymətli hədiyyələr təqdim edilib.

Sonra 2024-2025-ci tədris ilini "Əlaçı" döş nişanı ilə başa vurmuş 4-cü kurs kursantı Elbrus Abbasov çıxış edərək göstərilən qayğı, etimad və dəstəyə görə akademiya rəhbərliyi və elmi pedaqoji kollektivinə öz təşəkkürlərini çatdırıb. Mərasim I kurs kursantlarının "Polis Andı"nı qəbul etmələri ilə davam edib.

Daha sonra I kurs kursantı Hacıalı Hacıyev çıxış edərək bu əlamətdar gün münasibətilə kurs yoldaşlarını təbrik edib. Tədbirin davamında təntənəli marş sədaları altında şəxsi heyət təntənəli keçidlə tribunanın qarşısından keçib.

Sonda Polis Akademiyasının şəxsi heyəti Bilik günü və I kurs kursantlarının "Polis Andı"nı qəbul etmələrinə həsr olunan fleşmob keçirib.

**Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi İnstitutunda da kursantların hərbi andiçmə mərasimi keçirilib**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən igid oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının dövlət himni ifa edilib.

Daxili qoşunların komandanının müavini general-mayor İnqilab Muradov tədbir iştirakçılarını salamlayaraq yeni tədris ilinin başlanması münasibətilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazovun təbrik və tövsiyələrini şəxsi heyətə çatdırıb.

Qeyd olunub ki, Daxili Qoşunların döyüş yolu, tarixi əməliyyatlarda iştirakı, şəxsi heyətin xüsusi qəhrəmanlıqları və vətən müdafiəsində verdikləri töhfələr dövlətimizin tarixində şərəfli səhifələrdən biridir.

Hərbi İnstitutun rektoru general-mayor Elçin Məmmədov çıxış edərək müasir dövrün çağırış və təhdidlərinə cavab verən ixtisaslı kadr hazırlığının həyata keçirilməsi ilə bağlı tələblərin, əmr və göstərişlərin bundan sonra da yüksək səviyyədə yerinə yetiriləcəyini vurğulayıb.

Daha sonra kursantlar Vətənə sədaqət andı içiblər.

Mərasim şəxsi heyətin təntənəli marşla keçidi ilə başa çatıb.

*"Polis"*

# Paytaxtımız dünyanın diqqətindədir

## "Formula 1"-ə hazırlıq, hərəkətin təhlükəsizliyi peşəkarlıqla həyata keçirilir

**Sentyabrın 19-21-də keçiriləcək "Formula-1 Qatar Airways" Azərbaycan Qran-prisi ilə əlaqədar hazırlıqlar başa çatıb. İlk dəfə 2016-cı ildə idman avtomobillərinin yarışı ilə tanış olan Bakı sayca doqquzcu Qran Pri-yə ev sahibliyi edəcək.**

Paytaxt sakinləri artıq bir müddət idi ki, yarışın keçiriləcəyi ərazilərdə təhlükəsizlik sədlərinin çəkilməsi fonunda hazırlıqların şahidi olurdu. "Formula 1" ilə əlaqədar bəzi yollarda nəqliyyatın hərəkətinə məhdudiyyətin tətbiq edilməsinə başlanılması ilə hazırlıqların son mərhələsinə keçildi.

Logistik əməliyyatların həyata keçirilməsi məqsədilə 12 sentyabr gecə saat 01:00-dan etibarən Puşkin küçəsinin Üzeyir Hacıbəyov küçəsi və Neftçilər prospekti ilə kəsişməsindən olan hissəsi nəqliyyatın hərəkəti üçün məhdudlaşdırılıb. Məhdudiyyət tədbirin sonunadək davam edəcək.

Bakıda keçiriləcək Formula 1 yarışları təkcə sürət və adrenalinlə deyil, həm də şəhər miqyasında xüsusi təhlükəsizlik və təşkilati tədbirlərlə müşayiət olunur. Bu tədbirlərdə təbii ki, yol polisinin də üzərinə mühüm iş düşür.

Formula 1 trası paytaxtın mərkəzi küçələrindən keçdiyi üçün yarış günlərində müəyyən yolların bağlanması zəruridir. Buna görə də yol polisi öncədən alternativ marşrutlar hazırlayaraq sürücülərin və piyadaların hərəkətini tənzimləyir, sürücülərə vaxtında xəbərdarlıq etməklə nəqliyyat axınının idarə edilməsini təmin edir.

Hazırda şəhər daxilində tıxacların qarşısının alınması yol polisi üçün əsas prioritetlərdən biridir. Hava limanı, hotellər və yarış məkanları arasında hərəkət edən nəqliyyat vasitələrinin koordinasiyası, ictimai nəqliyyatın xüsusi rejimdə işləməsi, tamaşaçıların gediş-gəlişi üçün hərəkətin tənzimlənməsi bu işlərin mühüm hissəsidir.

Bu baxımdan əhalinin və sürücülərin məlumatlandırılması da mühüm şərtdir. Media və sosial şəbəkələr vasitəsilə sürücülərə alternativ yollar, məhdudiyyətlər və təhlükəsizlik qaydaları barədə məlumat verilir.

Ümumilikdə, polis üçün Formula 1 sadəcə bir idman yarışı deyil, paytaxtın təhlükəsizliyi, nəqliyyatın sabitliyi və şəhər həyatının nizamlı davamlılığı deməkdir. Polisin peşəkar fəaliyyəti sayəsində həm yerli sakinlər, həm də paytaxtın qonaqları bu möhtəşəm tədbirdən bu il də maksimum zövq ala biləcəklər.

Dünyanın ən çox izlənilən idman növlərindən biri olan və qısaca "F-1" kimi adlandırılan bu yarışların keçirildiyi ölkədə təhlükəsizlik əsas amil sayılır. Buraya həm avtomobillərin yüksək sürətlə hərəkət etməsi üçün infrastrukturun tələb edilən standartlara cavab verməsi, həm də daha geniş mənada, ictimai asayişin qorunub saxlanılması aid edilir.

Ən əsası, bu idman növü keçirilmə məkanına görə digər bütün yarışlardan, çempionatlardan, turnirlərdən fərqlənir. Çünki polisin xidmət yeri şəhərin böyük bir ərazisini əhatə edir. Bu isə əhalinin daha sıx yaşadığı ərazidə ictimai-asayişi və təhlükəsizliyi təmin etmək üçün daha gərgin səy tələb edir. Buna görə də "Formula 1" ilə əlaqədar xidmətə cəlb ediləcək polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmək üçün tam hazır vəziyyətə gətirilib. Yarış ərəfəsində Bakının digər küçə və prospektlərdə hərəkətin təhlükəsiz, rahat və maneəsiz təmini yol polisi əməkdaşları tərəfindən xüsusilə nəzarətə götürülüb.



Ölkəmizin istənilən belə beynəlxalq tədbirə ev sahibliyi etmək gücündə, potensialında olduğu dünyaya yaxşı məlumdur. Bizə bəslənən bu etimad, heç şübhəsiz ki, cinayətkarlıqla mübarizədə, ictimai qayda və ictimai təhlükəsizlik sahəsində əldə etdiyimiz böyük naliyyətlər sayəsində yaranıb.

Beynəlxalq təsisatların keçirdiyi sorğular da bunu sübut edir. Bu isə ölkəmizin müxtəlif beynəlxalq tədbirlərin keçirilməsi üçün təhlükəsiz məkan olduğuna dünya miqyasında əminlik yaradır.

*Ləman Babayeva*
*polis serjantı*

# Telefon oğrusu tutuldu

## Tanışının mağazasından pul da oğurlayıb

Xaçmaz Rayon Polis Şöbəsinin Xudat Polis Bölməsinin əməkdaşları daxil olan məlumat əsasında rayon sakini Elşən Əliyevi saxlayıblar. Araşdırmalarla onun Xudat şəhəri ərazisində tanışına məxsus mağazadan pul və ümumi dəyəri 6900 manat olan 18 ədəd mobil telefon oğurlaması müəyyən olunub. Faktla bağlı cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə E.Əliyevin barəsində həbs qətimkan tədbiri seçilib.

# Narkokuryerin aqibəti

## Polis onu külli miqdarda narkotiklə saxladı

Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə Sumqayıt şəhər sakini Əhməd Qarayev saxlanılıb. Şirvan regional qrupumuzdan verilən məlumata görə, onun üzərində 1 kiloqram heroin və marixuana aşkarlanıb. Ə.Qarayev sosial şəbəkələrdə tanış olduğu şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşına pul müqabilində narkokuryerlik etdiyini bildirib. Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

# Qətiyyətli mübarizə

## Nəsimi rayonunda polis hüquqpozmalara qarşı tədbir keçirib

Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən rayon ərazisində hüquqpozmalara qarşı profilaktik tədbirlər keçirilib. Tədbirlər zamanı axtarışda olan 7 nəfər saxlanılıb, "isti izlərlə" 8 cinayətin üstü açılıb. Qanunsuz küçə ticarəti, avaralıq və dilənçiliklə bağlı 29, xırda xuliqanlıq, məişət səs-küyü, tütün məmulatının istehlakına dair məhdudiyyətlərə riayət edilməməsi və s. qanun pozuntuları ilə əlaqədar 59 fakt aşkarlanıb.

Nəsimi RPİ DYPŞ-nin əməkdaşlarının keçirdikləri tədbirlər zamanı spirtli içki və narkotik maddələrin təsiri altında avtomobil idarə edən 4, nəqliyyat vasitəsinin konstruksiyasında dəyişiklik edən 3 və dayanma-durma qaydalarını pozan sürücülər barəsində inzibati tədbirlər görülüb.

Rayon ərazisində avtobus və ikitəkərli nəqliyyat vasitələrinin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə də profilaktik tədbirlər həyata keçirilib. Yol hərəkəti qaydalarını pozan, sürət həddini aşan, təhlükəli manevrlər edən, dəbilqədən istifadə etməyən motosiklet sürücüləri müəyyən olunub və onlarla maarifləndirici söhbətlər aparılıb. Sərnişin avtobuslarında isə nəqliyyat vasitələrinin reysqabağı texniki baxışdan keçməsi və sürücülərin tibbi müayinəsinin təşkili yoxlanılıb.

# Daha üç kuryer saxlanıldı

## Onların üzərindən 3 kq narkotik aşkarlanıb

Sabunçu RPİ-nin 42-ci Polis Bölməsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat zamanı qabaqcadan əlbir olaraq narkotik vasitələrin satışı və qanunsuz dövriyyəsini təşkil edən şəxslər - 31 yaşlı İ.Qardaşxanlı, 20 yaşlı S.Nasib və 21 yaşlı V.İsmayılov saxlanılıblar. Onlardan ümumilikdə 3 kiloqrama yaxın marixuana və həşiş aşkarlanaraq götürülüb. Saxlanılanlar ifadələrində narkotik vasitələri maddi gəlir qazanmaq üçün şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşından əldə etdiklərini və ayrı-ayrı ünvanlara çatdırmağı planlaşdırdıqlarını bildiriblər.

Faktla bağlı araşdırmalar aparılır.

# Əl "baqaj"larını talamışdılar

## Əcnəbi oğruları polis ifşa etdi

DİN-in Hava Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə əcnəbi vətəndaşlar — 45 yaşlı Van Hong və 43 yaşlı Zhou Longgen saxlanılıblar. Araşdırmalarla məlum olub ki, şübhəli şəxslər təyyarədə olan sərnişinlərin ani diqqətsizliyindən istifadə edərək onların pul və digər qiymətli əşyalarını gizli yolla talayıblar. Saxlanılan şəxslər çantalarda olan pulları əldə edəndən sonra şübhə oyatmamaq üçün onların yerinə qat-qat aşağı nominallı və müxtəlif ölkələrə məxsus pul vəsaitləri yerləşdiriblər ki, uçuş zamanı sərnişinlər bilməsinlər. Onların üzərindən iş üçün mühüm əhəmiyyət kəsb edən maddi və elektron sübutlar aşkarlanaraq istintaqa təhvil verilib.

Fakta görə başlayan cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

# Əsrin Zəfərinə çevrilən müqavilə

## Ulu öndərin neft strategiyası qazanılan uğurların təməli oldu

Azərbaycan neftinin dünya bazarına çıxarılması, əldə olunan gəlirlə milli büdcəni bərpa etmək, möhkəmləndirmək, əhalinin sosial səviyyəsini yüksəltmək həyata keçirilən uğurlu iqtisadi siyasətin nəticəsi idi.

1994-cü il sentyabrın 20-də Bakıda, Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında müqavilə imzalandı. Müqavilə neft sahəsində ulu öndər Heydər Əliyevin qazandığı uğurların hələ başlanğıcı idi. Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunmasında, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynadı.

### Sabitlik ən vacib məsələlərdən biri idi

İlk növbədə sabitliyi təmin etmək, işğalı durdurmaq, beynəlxalq münasibətlər sistemində öz yerini tutmaq, regional proseslərdə aparıcı güc mərkəzinə çevrilmək və buna zəmin hazırlamaq, bilavasitə ölkə iqtisadiyyatının gücləndirilməsindən keçirdi.

"Əsrin müqaviləsi" çərçivəsində 1997-ci ildə neft hasilatına başlandı. Əldə edilən gəlirlər hesabına Azərbaycanın iqtisadi imkanları artdı, əhalinin rifahı yüksəldi, güclü ordu quruculuğunun təməli qoyuldu.

2017-ci il sentyabrın 14-də isə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsində yeni dövr başlandı. Belə ki, AÇG-nin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edildi və yenidən tərtib





olunmuş saziş imzalandı. "Yeni əsrin müqaviləsi" adlanan bu sənədin müəllifi bu dəfə İlham Əliyev idi.

### Gələcək iqtisadi hədəflər müəyyənləşmişdi

Bununla nəhəng AÇG yataqlar blokunun işlənilməsi 2050-ci ilin əvvəlinə qədər uzadıldı. Saziş ölkəmiz üçün daha əlverişli şərtlərlə imzalandı. Müqavilə ölkənin gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Sazişin bir hissəsi olaraq SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə yüksəldildi. Beynəlxalq tərəfdaş şirkətlər layihənin icrası dövründə Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək.

### Tarixi zəfərlərimizə gedən yolun başlanğıcı

"Əsrin müqaviləsi" ilə təkcə iqtisadi uğurlarımızın bünövrəsi qoyulmadı. Bu müqavilə, həm də tarixi zəfərimizə gedən yolun başlanğıcı idi. Ulu öndərin siyasətini davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hazırda qüdrətli ölkəyə, regionun lider, dünyanın isə önəmli bir dövlətinə çevrilib. Ermənistanın siyasi rəhbərliyi ölkə əhalisinin sayını azaltdığı, onların sosial səfalət üzündən kütləvi şəkildə mühacirətə üz tutmasına şərait yaratdığı illərdə Azərbaycan öz iqtisadi, hərbi, siyasi qüdrətini artırır, gələcək qələbə üçün tarixi zəmin yaradırdı. Yəni 44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfər və antiterror tədbirləri ilə suverenliyimizin tam bərqərar olması ümummilli lider Heydər Əliyevin başlatdığı, Prezident İlham Əliyevin davam etdirdiyi praqmatik, rasional, məntiqli siyasətin məntiqi yekunu idi.

Bu gün Azərbaycan iqtisadiyyatı yeni dövrə qədəm qoyub. İqtisadi qüdrətimiz imkan verir ki, erməni işğalından azad olunan Qarabağı və Şərqi Zəngəzuru öz gücümüzə bərpa edək, Böyük Qayıdışı həyata keçirək. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin yeni yüksəliş strategiyasına uyğun olaraq davamlı və inklüziv iqtisadi inkişaf ölkəmizə çox böyük uğurlar qazandıracaq.

# Silahsız qəhrəman: Desmond Doss

## O, vicdanın gücü ilə qələbəyə doğru addımlayırdı

Desmond Doss 1919-cu ildə Virciniya ştatının Linçburq şəhərində doğulub. Onun ailəsi dindar Adventistlər olduğu üçün Desmond erkən yaşlarından zorakılıqdan uzaq, Allaha və insani dəyərlərə bağlı böyümüşdü.

Atasının sərt təbiətinə baxmayaraq, anasının mehribanlığı və dini tərbiyəsi onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdı.

Uşaq vaxtı qardaşı ilə dalaşarkən qardaşının ona tapança tuşlaması onu sarsıtmış, yaddaşında dərin iz buraxmışdı. Həmin gün and içmişdi ki, bir daha heç vaxt insan həyatına son qoymayacaq. Bu qərar onun həyat yolunu müəyyənləşdirəcəkdi.

### Döyüşə yox, insanlığa xidmət

1942-ci ildə ABŞ İkinci Dünya Müharibəsinə qoşulanda Desmond da vətənə xidmət etmək istəyirdi. Amma o, döyüşdə iştirak etməyə razı olsa da, silah götürməkdən imtina etdi. O, "vicdanlı imtina edən" kimi hərbi xidmətə tibbi personal olaraq yazıldı. Bu qərarına görə o, həm əsgər yoldaşlarının, həm də zabitlərin təzyiqi ilə üzləşdi.

### "Mişar Silsiləsində" insanlıq dərsi

Desmondu qorxaqlıqda, xəyanətdə ittiham edirdilər, onu döyməyə çalışır, təlimlərdə qəsdən çətinliklər yaradırdılar. Amma o, dözür, heç kimə qarşı kin saxlamır, əksinə, səssiz əzmi ilə onların hörmətini qazanırdı.

1945-ci ilin yazında, Yaponiyanın Okinava adasında aparılan amansız döyüşlərdə Desmond Doss möcüzəvi bir qəhrəmanlıq nümayiş etdirdi. "Mişar Silsiləsi" adlı qayalı ərazidə ABŞ əsgərləri yaponlarla qanlı döyüşlərə girəndə, ağır itkilər verdilər. Əksəriyyət təpədən geri çəkilərkən, Desmond təkbaşına döyüş meydanında qaldı.

O, düşmən önündə silahsız qalsa da, 12 saat boyunca yaralı əsgərləri təhlükəli ərazidən kəndir vasitəsilə təpədən aşağı endirərək xilas etdi. Həmin gün 75



əsgəri ölümün cəngindən almışdı.

### Qəhrəmanlığın etirafı

Desmond Dossun göstərdiyi rəşadət, nəinki ABŞ ordusu, hətta bütün dünya üçün nümunəyə çevrildi. 1945-ci ildə ABŞ prezidenti Harry Truman onu Şərəf Medalı (Medal of Honor) ilə təltif etdi. Bu, Amerikanın hərb tarixində silahsız bir əsgərə verilən ilk və nadir medallardan biri idi.

Desmond müharibədən sonra mütəmadi olaraq təqdirəlayiq çıxışlar etsə də, həmişə təvazökar qalırdı. O, heç vaxt özünü qəhrəman adlandırmadı. Deyirdi: "Mən sadəcə doğru bildiyimi etdim."

### Dəyərlərinə sadiq qaldı

Desmond Doss II Dünya müharibəsindən sonra sağlamlıq problemləri yaşasa da ömrü boyu sülhə və insanlığa xidmət etməyə davam etdi. O, 2006-cı ildə 87 yaşında dünyadan köçdü.

Onun həyatı 2016-cı ildə Mel Gibsonun rejissoru olduğu məşhur "Mişar Silsiləsi" filmi ilə ekranlaşdırıldı və bu film bir daha sübut etdi ki, cəsarət təkcə silahla deyil, vicdan və iradə ilə də göstərilə bilər.

Desmond Dossun hekayəsi sadəcə hərbi qəhrəmanlıq deyil, ruh yüksəkliyi, inam və insan sevgisinin timsalıdır. O, bütün dünyaya göstərdi ki, əsl qəhrəman olmaq üçün əlində silah yox, ürəyində mərhəmət olmalıdır.

*Aytən Tahirova*
*polis kapitanı*

# Qanunlar mübarizənin təməlidir

## Bu hüquqi addımlar cinayətlərin azalmasına səbəb olub

### "Üç zərbə qanunu" – ABŞ

ABŞ-ın bəzi ştatlarında tətbiq olunan bu qanun cinayətkarların təkrar cinayət törətməsinin qarşısını almağa yönəlib. Qanuna görə, şəxs eyni və ya oxşar ağır cinayətləri üç dəfə törədərsə, ömürlük həbs cəzası ala bilər. Bu sərt yanaşma nəticəsində xüsusilə zorakı cinayətlərin qarşısı alınıb, bəzi ştatlarda silahlı basqın və qarət kimi hallarda əhəmiyyətli azalma müşahidə edilib.

### GPS nəzarəti və elektron bilərzik – Skandinaviya ölkələri

Norveç, İsveç və Finlandiya kimi ölkələrdə azadlığa buraxılmış və ya şərti cəza almış şəxslərə GPS izləmə cihazı taxılır. Bu sistem, nəzarətin effektivliyini artırır və təkrar cinayət riskini minimuma endirir. Eyni zamanda, keçmiş məhkumların cəmiyyətə reinteqrasiya prosesi də asanlaşır. Sistem şəffaf və texnologiyaya əsaslandığı üçün hüquq orqanları işi də yüngülləşir.

### Gecə alkoqol satışına qadağa – Litva

Litvada tətbiq olunan qanunla gecə saatlarında alkoqollu içkilərin satışı ciddi şəkildə məhdudlaşdırılıb. Bu qərar, içkiyə bağlı baş verən cinayətlərin, xüsusilə məişət zorakılığı və ictimai asayiş pozuntularının əhəmiyyətli dərəcədə azalmasına səbəb olub. Eyni zamanda, gənclər arasında içkiyə meylin də önünün alındığı bildirilir.

### Sərt silah qanunları – Avstraliya

1996-cı ildə Avstraliyada baş verən silahlı qətliamdan sonra hökumət dərhal reaksiya verdi və bütün ölkə üzrə ciddi silah nəzarəti qanunları qəbul olundu. Avstraliya vətəndaşları öz silahlarını ya təhvil verdilər, ya da qeydiyyatdan keçirib qanuni çərçivədə saxlamaqla məhdudlaşdırıldılar. Bu qanun dəyişikliyi nəticəsində silahla bağlı cinayətlərdə ciddi azalma qeydə alınıb və ölkə bu sahədə dünya üçün nümunəyə çevrilib.

### Məlumat paylaşımı və cinayətkarlığa qarşı süni intellekt – Sinqapur

Sinqapurda hüquq-mühafizə orqanları müxtəlif qurumlarla informasiya paylaşımını gücləndirərək cinayətləri qabaqlamaq üçün süni intellekt sistemlərindən istifadə etməyə başlayıblar. Məsələn, davranış təhlili, CCTV kameralar və səs analiz sistemləri vasitəsilə potensial təhlükəli şəxs və ya situasiyalar əvvəlcədən aşkarlanır. Bu yanaşma daha az insan resursu ilə yüksək təhlükəsizlik təmin etməyə imkan verir.

**Cinayətkarlıqla mübarizə təkcə sərt cəzalarla deyil, ağıllı və qabaqlayıcı qanunlarla mümkündür. Bu 5 nümunə sübut edir ki, texnologiyadan düzgün istifadə, sosial psixologiyanı nəzərə alan hüquqi yanaşmalar və cəmiyyətlə birgə işləyən sistemlər cinayətlərin sayını azaltmaqda böyük rol oynaya bilər.**

# DYP-dən xəbərdarlıq

## Hərəkət iştirakçılarının nəzərinə

Yağıntılı hava şəraiti yol örtüyünün sürüşkənliyini artırmaqla yanaşı, sürücülər və piyadalar üçün əlavə risklər yaradır:

"Ölkəmizin əksər ərazilərində, o cümlədən paytaxt Bakı şəhərində yağıntılı hava şəraiti davam edir. Belə hava şəraiti yol örtüyünün sürüşkənliyini artırmaqla yanaşı, görmə imkanlarını da məhdudlaşdırır və bu, həm sürücülər, həm də piyadalar üçün əlavə risklər yaradır". Baş Dövlət Yol Polisi İdarəsi bir daha xəbərdarlıq edib ki, sürücülər yol hərəkəti qaydalarına ciddi riayət etməli, sürət həddini hava şəraitinə uyğun seçməli, öndə hərəkət edən nəqliyyat vasitəsi ilə ara məsafəsini artırmalı, piyada keçidlərinə yaxınlaşarkən xüsusilə diqqətli olmalıdırlar: "Piyadalara xatırladılır ki, yalnız təyin olunmuş piyada keçidlərindən istifadə etməli, yağışlı havada sürücülərin görmə imkanlarının məhdud ola biləcəyini nəzərə alaraq daha diqqətli davranmalıdırlar. Baş Dövlət Yol Polisi İdarəsi bir daha bütün hərəkət iştirakçılarını hava şəraitini nəzərə alaraq diqqətli olmağa və qaydalara ciddi şəkildə əməl etməyə çağırır".

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik